# DÖVLƏT İMTAHAN MƏRKƏZİ 2025/2026-cı TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURALARINA QƏBUL ELAN EDİR

**1.** Bakalavrların və digər ali təhsilli şəxslərin Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun fəaliyyət göstərən dövlət, bələdiyyə və özəl ali təhsil müəssisələrinin magistraturalarına qəbulu Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarına qəbul Qaydaları" (bundan sonra – Qaydalar) ilə tənzimlənir.

**2.** Ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər (bundan sonra – bakalavrlar) malikdirlər.

**3.** Magistraturalara qəbul bakalavrların cari tədris ilində keçirilən qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən müsabiqə yolu ilə həyata keçirilir.

İmtahanın məzmunu, forması, aparılma texnologiyası, müddəti, keçiriləcəyi ünvan və tarixlər Mərkəz tərəfindən müəyyən edilir. İmtahan suallarının məzmunu Mərkəz tərəfindən hazırlanmış və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Elm və Təhsil Nazirliyi) ilə razılaşdırılmaqla təsdiq edilmiş imtahan fənləri üzrə qəbul proqramları əsasında müəyyənləşdirilir.

**4.** Magistraturada təhsil dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) və ya ödənişli əsaslarla həyata keçirilir.

**5.** Dövlət ali təhsilin magistratura səviyyəsində qanunvericiliyə uyğun olaraq, təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

Dövlət hesabına magistraturada təhsil almış magistrlər dövlət sifarişi ilə qəbul aparılan yerləri seçə bilməzlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, yalnız təhsili ödənişli əsaslarla həyata keçirilən ixtisaslaşmaları seçməlidirlər.

**6.** Ali təhsil müəssisələrində təhsil alan magistrantlar (buraxılış kurslarında təhsil alanlar istisna olmaqla) magistraturaya qəbul üçün müsabiqədə iştirak edə bilməzlər.

**7.** Müsabiqədə iştirak ödənişlidir.

**8.** Magistraturaya qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir.

**9.** 2025-ci ildə magistraturaya qəbul imtahanının iki dəfə (I və II cəhd) keçirilməsi nəzərdə tutulur. Bakalavrlar öz istəklərinə uyğun olaraq həmin imtahan cəhdlərinin birində və ya hər ikisində iştirak etmək üçün qeydiyyatdan keçə və müsabiqənin ixtisas seçimi mərhələsində həmin imtahan cəhdlərinin hər hansı birində topladıqları bal ilə (öz seçimlərinə uyğun olaraq) iştirak edə bilərlər.

**9.1.** Qəbul imtahanının birinci cəhdinin 2025-ci il fevralın 16-da keçirilməsi nəzərdə tutulur. Qəbul imtahanının ikinci cəhdinin tarixi barədə əlavə məlumat veriləcək.

**10.** İmtahanda iştirak etmək üçün bakalavrların ərizələrinin qəbulu internet vasitəsi ilə aparılır.

**10.1.** Bakalavr qəbul imtahanının I cəhdində iştirak etmək üçün 2025-ci il yanvarın 13-dən 27-dək Mərkəzin internet saytının *ekabinet.dim.gov.az* səhifəsində "Şəxsi kabinet" yaratdıqdan (olmadığı halda) sonra ərizə vermək üçün tələb olunan məbləği "Şəxsi kabinet"indəki hesabına əlavə edir. Bu məqsədlə təqdim olunan ödəniş üsullarının (bax: *epayment.dim.gov.az* internet səhifəsinə) birindən istifadə edir.

Bakalavr "Şəxsi kabinet"inin istifadəçi adı və parolundan istifadə etməklə ərizə qəbulu müddətində Mərkəzin internet saytının müvafiq səhifəsinə *(http://eservices.dim.gov.az/erizemag/erize)* daxil olub, "Bakalavrın elektron ərizəsi" formasını doldurur və təsdiq edir. (Ətraflı məlumat jurnalın 6 – 9-cu səhifələrində və *http://eservices.dim.gov.az/erizemag/erize* internet səhifəsindəki aktual keçidlərdə verilmişdir.)

**10.2.** Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrini bitirən bakalavrlar, eləcə də xarici ölkələrdə ali təhsil almış və xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyaları Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən tanınan bakalavrlar qəbul imtahanında iştirak etmək üçün ərizə qəbulu müddətində Mərkəzin rəsmi internet saytında "Bakalavrın elektron ərizəsi"ni doldurur və təsdiq edirlər.

**11.** İki və ya daha çox ixtisas üzrə bakalavr təhsilinə malik olan şəxslər öz istəklərinə uyğun olaraq onlardan birini seçir və həmin ixtisas üzrə təhsil məlumatlarını "Bakalavrın elektron ərizəsi"nə daxil edirlər. Bakalavrlar ixtisaslaşma seçimi mərhələsində yalnız ərizə qəbulu zamanı təqdim etdikləri ali təhsil haqqında məlumatlarda (sənəddə) göstərilən ixtisasa uyğun olan ixtisaslaşmaları seçə bilərlər.

**12.** İmtahanda bakalavrların xarici dili bilmə səviyyəsi, informatika üzrə bilikləri və məntiqi təfəkkürü yoxlanılır. Məntiqi təfəkkürün yoxlanılması üçün 50 (o cümlədən açıq tipli 5), İnformatika üzrə 25 (o cümlədən açıq tipli 5), Xarici dil üzrə 20 (o cümlədən açıq tipli 2) test tapşırığı və yazı işi (esse) yerinə yetirmək üçün mövzu təqdim olunacaqdır (bax: **Cədvəl 1**).

**12.1.** Xarici dil üzrə bakalavrlara oxuyub-anlama bloku üzrə iki oxu mətni – mətnlərin hər birinə aid

4 qapalı, 1 açıq tipli test tapşırığı olmaqla, ümumilikdə 5 tapşırıq təqdim olunur. Oxu mətnləri üzrə açıq tipli (seçim) test tapşırıqlarından əlavə, verilmiş fikrin doğru və ya yanlış olmasını müəyyənləşdirməyi tələb edən qapalı tipli test tapşırıqları da verilir. Bu tip test tapşırıqlarında, ümumilikdə 4 mülahizə olur. Bakalavrın mülahizələrə dair verdiyi bütün cavablar doğru olduqda bu, 1 (tam) balla, 3 mülahizəyə dair verdiyi cavab doğru olduqda 0.5 (yarım) balla, iki və ya daha az mülahizəni doğru cavablandırdıqda isə 0 (sıfır) balla qiymətləndirilir. İmtahanda dinləyib-anlama və dil qaydaları üzrə biliyi yoxlayan blokların hər biri üzrə 5 qapalı tipli test tapşırığı təqdim edilir.

**12.2.** İmtahan nəticələri hesablanarkən bakalavrın hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir, esse maksimum 5 balla qiymətləndirilir. Beləliklə, imtahanda əldə oluna bilən maksimal nəticə 100 baldır.

**12.3.** Qəbul imtahanında bakalavrların imtahan verəcəyi xarici dil aşağıdakı qaydalar nəzərə alınmaqla, bakalavr tərəfindən müəyyən edilərək “Bakalavrın elektron ərizəsi”nə daxil edilir:

- tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar ingilis, alman, fransız və ya rus dilini seçə bilərlər;
- tədrisi rus dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar ingilis, alman və ya fransız dilini seçə bilərlər;
- tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar xarici dil kimi yalnız ingilis (alman) dilini seçməlidirlər;
- filologiya ixtisasının Azərbaycan dili və Azərbaycan ədəbiyyatı sahəsi üzrə, habelə tarix ixtisasının tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar xarici dil kimi ərəb və ya fars dilini də seçə bilərlər;
- filologiya (xarici dil və ədəbiyyat), pedaqogika (xarici dil və ədəbiyyat müəllimliyi, xarici dil müəllimliyi)və tərcümə ixtisası üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar ixtisaslaşma dilini xarici dil kimi seçə bilməzlər;
- regionşünaslıq (Amerikaşünaslıq), regionşünaslıq (ABŞ və Kanada üzrə), regionşünaslıq (Böyük Britaniyaşünaslıq) ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar yalnız ingilis dilini, regionşünaslıq (Almaniyaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar yalnız alman dilini, regionşünaslıq (Fransaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar isə yalnız fransız dilini xarici dil kimi seçməlidirlər.

**12.4.** Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların dövlət sifarişi üzrə ayrılmış yerlərini seçmək üçün bakalavrın imtahanda ingilis (alman) dilindən topladığı bal 20-dən, ödənişli yerlərini seçmək üçün isə 15-dən az olmamalıdır.

**13.** Qəbul imtahanının birinci və (və ya) ikinci cəhdinin, bəzi ixtisaslaşmalar üçün isə həmçinin qabiliyyət imtahanının nəticələri Mərkəz tərəfindən Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilən müsabiqə şərtini (bundan sonra – müsabiqə şərti) ödəyən bakalavrlar ixtisaslaşma seçiminə buraxılırlar (bax: **Cədvəl 1 və 2**). Bu bakalavrlar DİM tərəfindən elan olunan müddətdə elektron ərizələrinə daxil olaraq bitirdikləri bakalavr ixtisasına uyğun olan ixtisaslaşmaları seçib təsdiq edirlər. İxtisaslaşma seçimi “Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli” ilə tənzimlənir (həmin cədvəl və qabiliyyət imtahanı proqramları “Magistr” jurnalının növbəti sayında veriləcəkdir).

**13.1.** *“ADA” Universiteti, Hərbi Elmi Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun, M.V.Lomonosov adına MDU-nun Bakı filialı, Birgə Azərbaycan-Fransız Universiteti (UFAZ), İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının magistraturalarına* qəbul olmaq istəyən bakalavrlar, müvafiq müsabiqə şərtlərini (bax: Cədvəl 1) ödədikləri halda, qəbul imtahanından sonra həmin ali təhsil müəssisələrinə müraciət etməli və onların müəyyən etdiyi qəbul prosedurlarından keçməlidirlər. *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının* magistraturasının tədrisi ingilis dilində olan “İdman tibbi” ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar, müsabiqə şərtlərini (bax: **Cədvəl 2**), həmçinin Akademiya tərəfindən qoyulan ingilis dili üzrə tələbləri ödədikləri halda həmin ali təhsil müəssisəsinin müəyyən etdiyi qəbul prosedurlarından keçməlidirlər.

**13.2.** ***SABAH qrupları*** üzrə ixtisaslaşmaları müsabiqə şərtlərini ödəyən və Mərkəz tərəfindən təyin edilən müddətdə müvafiq ali təhsil müəssisəsi tərəfindən yaradılmış müsahibə komissiyasından uğurla keçən bakalavrlar seçə bilərlər.

**13.3.** *Fövqəladə Hallar Nazirliyinin Akademiyasının* magistraturasının ixtisaslaşmalarını yalnız həmin *Akademiyanın* məzunları seçə bilərlər.

*Milli Aviasiya Akademiyasının* bütün ixtisaslaşmalarını magistraturaya qəbul imtahanında xarici dil kimi yalnız ingilis dilindən imtahan verən bakalavrlar seçə bilərlər. *Akademiyanın 10 saylı proqram* üzrə ixtisaslaşmalarını yalnız bu təhsil müəssisəsinin məzunu olan bakalavrlar seçə bilərlər.

Ali təhsil müəssisələrinin “***Menecment*** (təhsilin təşkili və idarə olunması)” ixtisaslaşmasını yalnız təhsil

ixtisasları qrupunun ixtisaslarından birini bitirən bakalavrlar seçə bilərlər.

**13.4.** Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarına və jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən və qəbul imtahanındakı nəticələri müsabiqə şərtini ödəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra Mərkəz tərəfindən elan edilən müddətdə qabiliyyət imtahanı verirlər.

**13.5.** Ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul imtahanında 50 və ya daha çox bal toplayaraq müsabiqə şərtlərini ödəyən və ixtisaslaşma seçiminə buraxılan bütün bakalavrlar bitirdikləri bakalavr ixtisaslarından asılı olmayaraq, jurnalistika ixtisası üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq üçün müraciət edə bilərlər. Qeyd olunan bakalavrlar Mərkəz tərəfindən elan olunan müddətlərdə Mərkəzin internet saytının müvafiq səhifəsində sorğu anketini doldurmaqla qeydiyyatdan keçir, "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edir və vərəqədə göstərilən vaxtda və ünvanda qabiliyyət imtahanında iştirak edirlər.

Bakalavrlar jurnalistika üzrə qabiliyyət imtahanına gələrkən özləri ilə aşağıdakı sənədləri gətirməlidirlər:

– şəxsiyyətini təsdiq edən sənədi;
– "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni;
– dövri mətbuatda, radio və televiziyada, internet KİV-lərdə yayımlanmış jurnalistika janrları üzrə yazılarını (radio və televiziyada yayımlanmış çıxışlarının disk yazılarını) (qovluqda);
– təqdim edilən materialların və çıxışların müəllifə məxsus olması ilə bağlı KİV-in məsul işçisi tərəfindən imzalanmış və təşkilatın möhürü ilə təsdiqlənmiş arayışı.

**13.6.** Bakalavrlar bitirdikləri bakalavr ixtisasından asılı olaraq, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasına aid müvafiq ixtisaslaşmalarla yanaşı, nəzəri ixtisaslaşmaları da seçə bilərlər. Nəzəri ixtisaslaşmaları seçmək istəyən və qəbul imtahanındakı nəticələri müsabiqə şərtini ödəyən bakalavrlar Mərkəz tərəfindən elan olunan müddətdə keçiriləcək ixtisaslaşma seçiminə buraxılırlar. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasını seçmək istəyən bakalavrlar isə Mərkəz tərəfindən elan olunan müddətlərdə Mərkəzin internet saytında qeydiyyatdan keçir, "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edir və vərəqədə göstərilən vaxtda və ünvanda qabiliyyət imtahanında iştirak edirlər.

Bakalavrlar qabiliyyət imtahanında iştirak etmək üçün özləri ilə aşağıdakı sənədləri gətirməlidirlər:

– şəxsiyyətini təsdiq edən sənədi;
– "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni;
– musiqi sənəti istiqamətinin ixtisaslaşmalarını seçənlər həmçinin musiqi ixtisaslaşmaları üzrə doldurulmuş proqram formasını.

Qabiliyyət imtahanı haqqında ətraflı məlumat "Magistr" jurnalının növbəti sayında və xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc ediləcək.

**13.7.** Qəbul imtahanında test tapşırıqlarının cavablandırılmasına 3 saat, yazı işini (esseni) yerinə yetirmək üçün isə 30 dəqiqə, cəmi 3 saat 30 dəqiqə vaxt ayrılır. 3 saat bitdikdən sonra bakalavrlardan cavab kartları yığılır və onlara yazı işini yazmaq üçün xüsusi esse (yazı işi) vərəqləri paylanır.

**13.8.** Qəbul imtahanlarında əlilliyi olan şəxslərin iştirakının təmin edilməsi üçün Mərkəz tərəfindən əlverişli şərait yaradılır. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş bakalavrlara fərdi nəzarətçi təyin edilir və onlar üçün imtahanın davametmə müddəti 30 dəqiqə artırılır. Bu bakalavrlar imtahana ən azı 14 gün qalmış əlilliyi təsdiq edən sənədlərin əslini Mərkəzə və ya onun regional bölmələrinə təqdim edir və ya sənədlərin "skan" olunmuş surətini onlayn qaydada Mərkəzin elektron poçtuna göndərirlər.

**13.9.** Qəbul imtahanı Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində keçirilir. Bakalavrın imtahan verəcəyi şəhər Mərkəz tərəfindən bakalavrın faktiki yaşadığı məntəqəyə görə (bax: səh. 6) təyin edilir.

**13.10.** Qeydiyyatdan keçmiş bakalavrlar 2025-ci il fevralın 9-dan 15-dək *eservices.dim.gov.az/brxv* internet səhifəsinə daxil olaraq "Bakalavrın imtahana buraxılış vərəqəsi"ni çap edir və imtahanın keçiriləcəyi ünvan və tarixi qeyd olunan buraxılış vərəqəsini və bakalavr ərizəsində göstərilən şəxsiyyəti təsdiq edən sənədi imtahana gələrkən hökmən özləri ilə gətirirlər.

**14.** Magistraturaya qəbul olmaq üçün ixtisaslaşma seçimi qəbul və qabiliyyət imtahanlarının nəticələri elan olunduqdan sonra Mərkəz tərəfindən elan olunan müddətdə aparılır.

**14.1.** İxtisaslaşma seçimi aparılan müddətdə bakalavr bitirdiyi ixtisasa müvafiq və istəyinə uyğun olan 20-dək ixtisaslaşmanın kodunu seçərək "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"nə istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir (qəbul aparılan ixtisaslaşmalar və həmin ixtisaslaşmalara ayrılan yerlərin siyahısı "Magistr" jurnalının 2025-ci ilin 4-cü sayında veriləcəkdir).

**14.2.** Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarını və jurnalistika üzrə magistratura ixtisaslaşmalarını qəbul imtahanını verdikdən sonra Mərkəz tərəfindən elan

edilən müddətdə Mərkəzin rəsmi internet saytında qeydiyyatdan keçən, qabiliyyət imtahanında iştirak edən və müvafiq qiymət alan bakalavrlar seçə bilərlər.

**14.3.** Bakalavrların seçdikləri ixtisaslaşmalar üzrə müsabiqə onların imtahandan topladıqları bal əsasında aparılır. Bakalavr imtahanın hər iki cəhdində iştirak etdiyi halda müsabiqədə öz istəyinə əsasən birinci və ya ikinci imtahan cəhdindən topladığı balla iştirak edir.

**14.4.** Bakalavrların ixtisaslaşmalara yerləşdirilməsi onların öz ərizələrində qeyd etdikləri ixtisaslaşmaların ardıcıllığı, dövlət sifarişi ilə qəbulun proqnozu nəzərə alınmaqla ixtisaslaşmalar üzrə vakant yerlərin sayı çərçivəsində həyata keçirilir. Seçilmiş ixtisaslaşmaların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı əsas kimi qəbul olunur və bakalavr topladığı bala əsasən müsabiqədən keçdiyi ilk ixtisaslaşmaya yerləşdirilir.

**14.5.** İmtahan balı eyni olan iki və daha çox bakalavrı bir-birindən fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

– ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

– məntiqi təfəkkürü yoxlayan testdən toplanılan bal;

– xarici dil üzrə toplanılan bal.

**14.6.** İmtahan balı eyni olan iki və daha çox bakalavrı bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisaslaşmaya yerləşdirilir.

**14.7.** Müsabiqənin nəticələri elan olunduqdan sonra boş qalan yerlər elan edilir, bakalavrlar tərəfindən yuxarıda göstərilən qaydada ixtisaslaşma seçimi həyata keçirilir və həmin yerlərə müsabiqə yolu ilə yerləşdirmə aparılır.

**15.** Təhsilalma formasından asılı olmayaraq, hər hansı bir ixtisaslaşmaya yerləşdirilmiş bakalavr Mərkəz tərəfindən təyin edilən müddətdə qəbul olunduğu təhsil müəssisəsi üzrə elektron qeydiyyatdan keçir. Bunun üçün bakalavr https://portal.edu.az/ platformasında qeydiyyatdan keçərək, yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlərdən "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalanların qeydiyyatı"nı seçir və tələb olunan məlumatları daxil edirlər.

Qeydiyyatdan keçməyən bakalavrlar qəbul olunanların siyahısından xaric edilirlər. Həmin bakalavrların boş qalan yerlər üzrə keçirilən müsabiqədə iştirak etməsinə icazə verilmir.

**16.** Ali təhsil müəssisələrinin magistraturalarına keçirilən müsabiqə və onun nəticələri ilə bağlı bakalavrların müraciətlərinə baxılması üçün Mərkəz tərəfindən Apellyasiya Komissiyası yaradılır.

Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər Mərkəz tərəfindən elan olunan müddətdə Mərkəzin saytında yerləşdirilən elektron ərizəni doldurmaqla qeydiyyatdan keçirlər.

Apellyasiya prosesi telefon əlaqəsi vasitəsilə təşkil edilir. Bir namizədin ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

Apellyasiya Komissiyasının qərarlarından inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

**17.** Bakalavrın aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

- saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;
- imtahana mobil telefon və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;
- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla imtahan binasına girmək, özü ilə tütün məmulatı gətirmək;
- imtahanın başlanması elan olunan andan 1,5 saat müddət keçənədək və yazı işini (esseni) yerinə yetirmək üçün ayrılan 30 dəqiqənin ilk 15 dəqiqəsi ərzində səbəbindən asılı olmayaraq imtahan zalından çıxmaq;
- imtahan zalında yerini dəyişmək, gəzişmək, yerindən durmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;
- başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
- nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;
- cavab kartını, sual kitabçasını və esse vərəqini zədələmək, cavab kartını və esse vərəqini nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

**18.** Bakalavrın yuxarıda göstərilən hərəkətlərə yol verməsi halları Mərkəz tərəfindən aşkar edildikdə onun müsabiqə nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

**Hörmətli bakalavrlar!**

Qəbul imtahanında iştirak etmək üçün yerinə yetiriləcək prosedurların xronoloji ardıcıllığı, qəbul imtahanının məzmunu, forması, imtahan tarixi və ayrılan vaxt, sualların sayı və müsabiqə şərtləri haqqında sizdə əyani və aydın təsəvvür yaratmaq üçün elana əlavə olaraq aşağıdakı cədvəlləri təqdim edirik:

**Cədvəl 1**

| Qəbul imtahanının məzmunu və imtahana ayrılan vaxt | Bakalavrın yerinə yetirdiyi işlər və onların vaxtı | Yoxlanılan keyfiyyət | Tapşırıqların sayı |
|---|---|---|---|
| **Bakalavrın məntiqi təfəkkürünün, informatika və xarici dil üzrə biliklərinin qiymətləndirilməsi imtahanı** (imtahana ayrılan vaxt – 3 saat 30 dəqiqə) | 1. Elektron ərizənin doldurulub təsdiq edilməsi *(13.01 - 27.01.2025)*<br>2. İmtahana buraxılış vərəqəsinin çap edilməsi *(09.02 - 15.02.2025)*<br>3. Qəbul imtahanının birinci cəhdi *(16.02.2025)* | Xarici dili bilmə səviyyəsi | 20 (o cümlədən açıq tipli 2) test tapşırığı və 1 esse mövzusu |
| | | İnformatika üzrə biliklər | 25 (o cümlədən açıq tipli 5) test tapşırığı |
| | | Məntiqi təfəkkür | 50 (o cümlədən açıq tipli 5) test tapşırığı |

**Müsabiqə şərtləri** **Cədvəl 2**

| Magistratura üzrə ixtisaslar qrupunun (ixtisasın) adı** | İmtahanın nəticəsinə qoyulan minimal tələblər*** | | |
|---|---|---|---|
| | Fənlər üzrə minimal tələb | | İmtahan üzrə minimal bal |
| | Fənnin adı | Minimal bal | |
| **Təhsil ixtisasları qrupu**<br>**Texniki və texnoloji ixtisaslar qrupu**<br>**Səhiyyə ixtisasları qrupu**<br>**İdman tibbi ixtisası** | Xarici dil**** | **5** | **40 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **15** | |
| **Humanitar və sosial ixtisaslar qrupu*** | Xarici dil**** | **5** | **50 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **15** | |
| **Təbiət ixtisasları qrupu**<br>**İqtisadiyyat və idarəetmə ixtisasları qrupu** | Xarici dil**** | **5** | **45 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **15** | |
| **Mədəniyyət ixtisasları qrupu***<br>**Kənd təsərrüfatı ixtisasları qrupu**<br>**İdman və xidmət ixtisasları qrupu (İdman tibbi ixtisasından başqa)**<br>**Xüsusi təyinatlı ixtisaslar qrupu** | Xarici dil**** | **5** | **30 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **10** | |

* Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasına və jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar qəbul imtahanından sonra qabiliyyət imtahanı verməlidirlər ("Magistr" jurnalının növbəti sayında qabiliyyət imtahanları barəsində ətraflı məlumat veriləcəkdir).

** Bax:*https://e-qanun.az/framework/58365#elave3*

***Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların dövlət sifarişi üzrə ayrılmış yerlərini seçmək üçün bakalavrın qəbul imtahanında ingilis (alman) dilindən topladığı bal 20-dən, ödənişli yerlərini seçmək üçün isə 15-dən az olmamalıdır.

**** Xarici dil üzrə yazı işi (esse) tapşırığı üzrə nəticəyə bal məhdudiyyəti qoyulmur.